**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№381/5** **03 noyabr 2025-ci il**

**2025-ci ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələr barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2025-ci il 17 sentyabr tarixli 379/1 nömrəli "Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə" qərarının 6.2-ci "2025-ci ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələr araşdırılsın və nəticələri barədə Palatanın rəhbərliyinə on gün müddətində arayış təqdim edilsin" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2025-ci ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələrə dair arayış nəzərə alınsın (əlavə olunur).
2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, auditorlar tərəfindən bağlanmış, lakin ləğv olunmuş müqavilələr müntəzəm araşdırılsın və nəticələri barədə Palatanın rəhbərliyinə rüblük arayış təqdim edilsin.
3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, auditorlar tərəfindən müqavilənin ləğv edilmə səbəbinin açıqlanması "Auditorun şəxsi kabineti" sisteminin hazırlanacaq yeni versiyasının qeyd bölməsində məcburi edilsin.
4. Bu qərarın mətni "Auditorun şəxsi kabineti" sisteminin xəbərlər bölməsində və Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**